

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 65 (20.966)

11 aprel 2014-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 10-da NATO Baş katibinin yeni təyin olunmuş müavini Sorin Dukarunu qəbul etmişdir.

NATO Baş katibinin yeni təyin olunmuş müavini Sorin Dukaru NATO-nun Baş katibi Anders Foq Rasmussenin salamlarını dövlətimizin başçısına çatdırdı. NATO ilə Azərbaycan arasında tərəfdaşlıq əlaqələrinin artıq 20 illik tarixə malik olduğunu vurğulayan qonaq bu əlaqələrin inkişafının önəmini qeyd etdi. Sorin Dukaru bildirdi ki, ölkəmizə səfərinin əsas məqsədi NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramının 20 illik yubileyində və eləcə də "Sülh və Təhlükəsizlik naminə elm" proqramı üzrə keçiriləcək informasiya günlərində iştirak etməkdir.

Dövlətimizin başçısı NATO-nun Brüsseldəki mənzil-qərargahında keçirdiyi uğurlu görüşləri, aparılan müzakirələri məmnunluqla xatırladı. Əməkdaşlığımızın böyük tarixə malik olduğunu vurğulayan Prezident İlham Əliyev tərəfdaşlıq əlaqələrimizin müxtəlif sahələrdə, xüsusi ilə enerji və Əfqanıstan ilə bağlı əməkdaşlıq sahəsində bundan sonra da davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

Azərbaycan Prezidenti İlham Əliyev Anders Foq Rasmussenin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını NATO-nun Baş katibinə çatdırmağı xahiş etdi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 10-da Zimbabve Respublikasının xarici işlər naziri Simbaraşe Mumbengegvini qəbul etmişdir.

## Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 6-cı bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasında dövlət idarəetmə strukturunu təkmilləşdirmək məqsədi ilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyinin əsasında Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə yaradılmış Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinin Əsasnaməsinin layihəsini, strukturu və işçilərin say tərkibi barədə təklifləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə təqdim etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 10 aprel 2014-cü il*

## Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanın ən qədim məskənlərindən olan, çoxəsrlik dövlətçilik ənənələrinə malik Naxçıvan böyük tarixi keçmişindən güc alaraq ötən dövrlər ərzindəki bütün mürəkkəblikləri layiqincə dəf etmiş və artıq sürətli inkişaf yoluna qədəm qoymuşdur.

Muxtar respublika kimi bu il özünün 90 yaşını qeyd edən diyarın xüsusən son illərdə sosial-iqtisadi və elmi-mədəni həyatı əhəmiyyətli dərəcədə müsbət irəliləyişlərlə səciyyələnir. Hazırda burada bir sıra irimiqyaslı infrastruktur layihələri uğurla həyata keçirilmiş, elektrik stansiyaları, idman kompleksləri, təhsil, səhiyyə, mədəniyyət və turizm obyektləri inşa olunmuş, yeni yollar çəkilmiş və istehsal müəssisələri yaradılmış, yaşayış məntəqələrində milli və müasir memarlığın nailiyyətlərini vəhdətdə əks etdirən binalar ucaldılmış, meydanlar, istirahət bağları və parkları salınmış, tarixi abidələr bərpa edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasında tarixi-mədəni irsin və milli memarlıq ənənələrinin qorunub saxlanılmasını, müasir şəhərsalma, istirahət və turizm infrastrukturunun yeniləşdirilməsi və abadlıq-quruculuq işlərinin davam etdirilməsini, habelə "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda müəyyən olunmuş tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi üçün Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 5,0 (beş) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 10 aprel 2014-cü il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü il 10 aprel tarixli Sərəncamı ilə "İnşaatçılar Günü" peşə bayramı ilə əlaqədar olaraq, Azərbaycan Respublikasında tikinti kompleksinin inkişafında xidmətlərinə görə bir qrup şəxs "Tərəqqi" medalı ilə təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının inşaatçıları da vardır.

**"Tərəqqi" medalı ilə**

Bünyadov Əhməd Sadıq oğlu
Cəfərov Qabil Zeynalabdın oğlu
Əliyev Vəzir Mustafa oğlu
İmanov Rəvayət Yəhya oğlu
Səfərov Məsum Qasım oğlu

## Norveç Krallığının səfiri Naxçıvan Dövlət Universitetində

Norveç Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erlinq Şönsberq Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Naxçıvan Dövlət Universitetində də olmuş, universitetin maddi-texniki bazası, buradakı tədris prosesi, həmçinin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsində fəaliyyət göstərən Cənubi Koreya Mədəniyyət və Dil Tədrisi mərkəzləri, Diplomatiya kabinəsi, Tərcümə-Tədris Mərkəzi ilə tanış olmuşdur.

Universitetin rektoru, professor Saleh Məhərrəmov bildirmişdir ki, dünya təhsilinə inteqrasiya yolu tutan universitetin beynəlxalq əlaqələri günbəgün genişlənməkdədir. Dünyanın tanınmış 80 ali məktəbi ilə beynəlxalq əməkdaşlığa malik olan bu ali məktəbdə 5000-dən yuxarı tələbə, o cümlədən 12 ölkənin 300 nəfərdən çox vətəndaşı ali təhsil alır. Universitet bir çox beynəlxalq layihədə uğurla təmsil olunur. Tələbə mobilliyinin artırılması istiqamətində universitetin bakalavr və doktorantları öz təhsillərini müxtəlif ölkələrdə davam etdirirlər.

Səfir Erlinq Şönsberq ölkələrarası münasibətlərin möhkəmlənməsində elm, təhsil sahəsində əməkdaşlığın mühüm rol oynadığını vurğulamış, muxtar respublika haqqında yüksək təəssüratlarını bölüşmüşdür. Gələcək tərəfdaşlıq məsələlərinin müzakirəsi zamanı universitetlərarası əməkdaşlığın genişləndirilməsində birgə layihələrin əhəmiyyəti önə çəkilmiş, norveçli diplomat bu istiqamətdə səylərini əsirgəməyəcəyini bildirmişdir.

Tələbələrlə görüş zamanı səfir Erlinq Şönsberqin öz ölkəsinin təhsil sistemi ilə bağlı məruzəsi dinlənilmiş, tələbələrin sualları cavablandırılmışdır.

Səfir muxtar respublikaya səfəri çərçivəsində Naxçıvanın tarixi abidələri, gəzməli-görməli yerləri, mədəniyyət və istehsal müəssisələri ilə tanış olmuşdur.

## Növbəti əmək yarmarkası

Şərur Rayon Məşğulluq Mərkəzi tərəfindən növbəti əmək yarmarkası keçirilib.

Tədbirdə mərkəzin direktoru Məmməd Məmmədovun, Şərur Rayon İcra Hakimiyyəti başçısının müavini Rövşən İsgəndərovun çıxışları olub. Çıxışlarda qeyd edilib ki, Şərur rayonu əhalisinin məşğulluğunun gücləndirilməsi, işaxtaranlarla işəgötürənlər arasında birbaşa əlaqələrin yaradılması və məşğulluq orqanlarının fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi istiqamətində təşkil edilən əmək yarmarkaları mühüm əhəmiyyətə malikdir. Bu istiqamətdə keçirilmiş tədbirlərin təhlili göstərir ki, belə tədbirlərdə işaxtaran vətəndaşlar yerli məşğulluq orqanlarının xidmətlərindən daha çox bəhrələnir, işəgötürən müəssisələrin məsul nümayəndələri ilə birbaşa ünsiyyət yaratmaq imkanı qazanırlar.

İşaxtaran vətəndaş Samir Qasımov tədbirin iştirakçılarına öz minnətdarlığını bildirərək qeyd edib ki, bu qəbildən fəal məşğulluq tədbirləri rayon sakinləri tərəfindən maraqla qarşılanır, onların müvafiq işlə təmin olunmaq imkanlarını artırır.

25 təşkilatdan 287 boş iş yerinin çıxarıldığı yarmarkada 69 nəfərə işə göndəriş verilib. İki nəfər isə peşə hazırlığına cəlb olunub.

## İnşaatçılar Günü qeyd edilib

*Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsində 10 aprel – İnşaatçılar Günü münasibətilə tədbir keçirilmişdir.*



Tədbiri giriş sözü ilə komitənin sədri Cəfər Muxtarov açaraq qeyd etmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2009-cu il 16 dekabr tarixli Sərəncamına əsasən, hər il aprelin 10-u ölkəmizdə "İnşaatçılar Günü" kimi qeyd olunur.

Ölkəmizin bütün bölgələrində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da geniş abadlıq-quruculuq işləri aparılır. 1995-ci ildən ötən dövrdə inşaat sektorunda fəaliyyət göstərən dövlət təşkilatlarına və özəl şirkətlərə maliyyə dəstəyi xeyli artırılmış, uzun illər bu sahədə çalışmış, peşəkarlıq qazanmış inşaatçıları öz ətrafında birləşdirən tikinti təşkilatları böyük qurucu qüvvəyə çevrilmiş, onlar muxtar respublikanın sosial-iqtisadi inkişafında, investisiya layihələrinin reallaşmasında, məşğulluq problemlərinin həllində önəmli rol oynamağa başlamışlar. Qabaqcıl dünya təcrübəsini və inşaat texnologiyalarını mənimsəyən tikinti sektoru muxtar respublikaya sürətli quruculuq, səmərəli podratçılıq, yüksək keyfiyyət və müasir dizayn gətirmişdir. Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərdə yeni istehsal sahələrinin və sosial infrastrukturun yaradılmasında, qədim və köhnə tikililərin təmir olunmasında, zəruri kommunikasiyaların yenilənməsində inşaatçıların müstəsna xidməti vardır.

Bildirilmişdir ki, artıq öz işinin ustası olan Naxçıvan inşaatçıları bu gün öhdələrinə götürdükləri işi qısa müddətdə və yüksək keyfiyyətlə başa çatdırır, verilən tapşırıqları vaxtında və böyük ustalıqla yerinə yetirirlər. Bu bir faktdır ki, son 18 il ərzində muxtar respublikanın hər yerində, hətta ən ucqar kəndlərində belə, aparılan geniş tikinti-quruculuq, abadlaşdırma işləri, yolların və körpülərin tikintisi onun simasını gözəlləşdirməklə yanaşı, həm də doğma diyarın müasir inkişaf reallıqlarına çevrilmişdir. Təkcə 2013-cü ilin göstəricilərinə diqqət yetirsək, görərik ki, muxtar respublikada bu istiqamətdə görülən işlərin həcmi ilə yanaşı, coğrafiyası da xeyli genişdir. Muxtar respublikada həyata keçirilən tikinti işləri təsərrüfat həyatının bütün sahələrini əhatə edir. Hər il yeni istehsal müəssisələri, təhsil, səhiyyə, mədəniyyət ocaqları üçün müasir binalar, hərbi təyinatlı obyektlər tikilib istifadəyə verilir. Kənd və qəsəbələrin tərəqqisi, bu yaşayış məntəqələrində mərkəzdə olanlardan heç nə ilə fərqlənməyən infrastrukturun yaradılması əhaliyə göstərilən xidmətin səviyyəsini yüksəltmişdir.

Sonra komitənin Culfa Rayon İdarəsinin sahə rəisi İbrahim Hüseynovun, komitənin baş məsləhətçisi Ruslan Kəngərlinin çıxışları olmuşdur.

Sonda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamı ilə "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunan bir qrup komitə işçisinə nişanlar təqdim edilmişdir.

**Xəbərlər şöbəsi**

***Naxçıvan muxtariyyət tarixinin doxsanıncı ilini yaşayır. Bu doxsan illik müddət 5000 illik şəhər mədəniyyəti tarixinə malik olan Naxçıvanın bütün tarixi kimi keşməkeşli, enişli-yoxuşlu olmuşdur. Qədim diyarın çoxəsrlik tarixində üç böyük intibah dövrünü fərqləndirmək mümkündür: eramızdan əvvəl IX-VII əsrlər Naxçıvan tarixinin birinci intibah dövrü, eramızın XII əsri Naxçıvan tarixinin ikinci intibah dövrü, XX əsrin sonu, XXI əsrin əvvəlləri isə bu qədim yurdun tarixinin üçüncü intibah dövrüdür.***

***Hər üç intibah dövrü üçün xarakterik olan əsas cəhət ondan ibarətdir ki, göstərilən dövrlərin hər birində Naxçıvanın tərəqqisi və inkişafı, birbaşa olaraq, Azərbaycan ərazisində formalaşmış müstəqil dövlətin mövcudluğu ilə əlaqədar olmuşdur.***

# Naxçıvan çiçəklənən diyardır

## *Prezident İlham Əliyevin bu qədim torpağa növbəti səfəri də tarixi hadisəyə çevrildi*



Bu gün müstəqil Azərbaycan dövləti öz qüdrətinin zirvəsini yaşamaqdadır. Əgər Azərbaycanın dünyada müstəqil ölkə kimi özünütəsdiq mərhələsi xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdırsa, Azərbaycanın dünyada gedən proseslərdə həlledici rol əldə etməsi, özünü bütün dünyaya etibarlı tərəfdaş kimi təsdiq etməsi ölkə Prezidenti cənab İlham Əliyevin yorulmaz fəaliyyəti ilə bağlıdır. Təbii ki, ikinci mərhələ birincinin davamı olmaqla qurulmuş möhkəm əsaslar üzərində inkişaf etməkdədir. Əgər birinci mərhələ ölkənin böhrandan çıxarılması mərhələsi kimi səciyyələnirsə, bu gün yaşamaqda olduğumuz ikinci mərhələ isə Azərbaycanın kompleks inkişafının, bütün regionların yüksək iqtisadi inkişafının təmin edilməsi mərhələsidir. Naxçıvan Muxtar Respublikası ölkəmizdə aparılan quruculuq, iqtisadi inkişaf və tərəqqi proseslərinin önündə getməklə ümummilli intibahda lokomotiv rolunu qoruyub saxlamaqdadır. Blokada şəraitinin yaratdığı çətinliklərə baxmayaraq, Naxçıvanın ümumi inkişaf proseslərinin ön sıralarında olması ölkə Prezidenti cənab İlham Əliyevin Azərbaycanın bu ayrılmaz tərkib hissəsinə xüsusi diqqət və qayğısından, muxtar respublika rəhbərinin ümummilli lider Heydər Əliyev yoluna, ideyalarına sadiqliyindən, naxçıvanlıların böyük Vətən sevgisindən qaynaqlanır.

Ölkə başçısı cənab İlham Əliyev ötən 10 illik prezidentlik müddəti dövründə Naxçıvana 11 dəfə səfər etmiş, bu səfərlər zamanı 70-dən çox obyekt istifadəyə verilmişdir.

Dövlət başçısının Naxçıvana səfərləri zamanı istifadəyə verilən obyektlərin hər biri Naxçıvanın inkişafı istiqamətində bir istiqamətverici məqam olmuşdur. Məsələn, 2004-cü il may ayının 12-də Naxçıvana səfər edən ölkə başçısının tamamilə yenidən qurulmuş Naxçıvan Beynəlxalq Hava Limanının açılışını etməsi, bu hava limanına açılışdan bir ay öncə, aprel ayında beynəlxalq status verilməsi həm də Naxçıvanın blokada vəziyyəti ilə bağlı beynəlxalq aləmə verilən bir mesaj idi. Bununla cənab Prezident Naxçıvanın Azərbaycan üçün nə dərəcədə əhəmiyyətli olduğunu diqqətə çatdırmışdı. Daha sonra ölkə başçısı cənab İlham Əliyev "N" hərbi hissədə yeni korpusun açılışını etmiş, Naxçıvanın təkcə nəqliyyat infrastrukturu və iqtisadi baxımından deyil, həm də hərbi müdafiə qabiliyyətinin möhkəmləndirilməsi baxımından gücləndirildiyini nümayiş etdirmişdi. Bu səfər həm də Naxçıvan Muxtar Respublika Xəstəxanasında kompüter tomoqrafiyası kabinetinin, Naxçıvan Dövlət Universitetinin yeni kitabxana binasının, AMEA Naxçıvan Bölməsinin yeni korpusunun, Yeyinti Sənaye Kompleksinin, Əlillərin Bərpa Mərkəzinin açılışı ilə yaddaqalan olmuşdu.

Ölkəmizin gələcəyi müdafiə qabiliyyətinin möhkəmləndirilməsi ilə yanaşı, təhsildən və elmdən, gənc nəslin sağlam və bilikli böyüməsindən əhəmiyyətli dərəcədə asılıdır. Cənab Prezidentin 2 sentyabr 2004-cü il tarixdə muxtar respublikaya səfərinin baş ideyasını məhz bu prioritetin reallığa çevrilməsi təşkil etmişdir. Belə ki, bu səfər zamanı ölkə rəhbəri Heydər Əliyev adına tam orta məktəbin, Mülki Müdafiə Mərkəzinin və Naxçıvan Üzgüçülük Mərkəzinin açılışını etmişdi.

Prezidentin 2005-ci ilin dekabr ayındakı səfəri zamanı isə Şahbuz rayonunun Ayrınc kəndində tam orta məktəb binası istifadəyə verilmiş, Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzinin və Kitab evinin açılışı olmuşdu.

Naxçıvanın əsas təhlükəsizlik məsələlərindən biri olan enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində görülən işlər də məhz ötən on il ərzində öz bəhrələrini vermişdir. Təkcə cənab Prezidentin 2006-cı ilin dekabr ayında Naxçıvan Muxtar Respublikasına səfəri zamanı bu profilli iki irimiqyaslı obyektin – Modul Tipli Elektrik Stansiyası və Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasının açılışı olmuşdur. Sonrakı dövrdə Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə Su Elektrik Stansiyasının və Ordubad rayonunda maksimal gücü 22 meqavat olan Biləv Su Elektrik Stansiyasının istifadəyə verilməsi və həyata keçirilən digər işlər sayəsində Naxçıvan Muxtar Respublikası elektrik enerjisi alan regiondan elektrik enerjisi ixrac edən regiona çevrilmişdir.

2006-cı ildəki səfər zamanı ölkə başçısı həmçinin Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin, 7 nömrəli tam orta məktəbin, "Cahan Holdinq" Şirkətlər Qrupunun yeni istehsal sahələrinin, Ordubad internat məktəbi kompleksinin açılış mərasimlərində də iştirak etmişdi.

Təbii ki, istənilən ölkənin, regionun inkişafı digər ölkələrlə iqtisadi əlaqələr olmadan qeyri-mümkündür. Azərbaycanın müəyyən edilmiş vahid xarici siyasət konsepsiyasına uyğun olaraq, muxtar respublikanın qonşu dövlətlər və həmsərhəd regionlarla əlaqələri də ötən on il ərzində böyük bir inkişaf yolu keçmişdir. Prezidentin 2007-ci il səfərinin ən yaddaqalan məqamlarından biri Azərbaycanla İran arasında Şahtaxtı-Poldəşt keçid məntəqəsinin açılışı olmuşdur. Bu səfər zamanı Naxçıvan Dövlət Universitetinin Konservatoriya binasının və Naxçıvan şəhərindəki 14 nömrəli tam orta məktəbin açılışı olmuş, Şərur Rayon Mərkəzi Xəstəxanası istifadəyə verilmişdir.

Yuxarıda da qeyd etdiyimiz kimi, Azərbaycanın vahid xarici siyasət konsepsiyasına uyğun olaraq, Naxçıvan Muxtar Respublikasının da qonşu ölkələrlə mədəni-humanitar və iqtisadi sahələrdə əlaqələrinin inkişaf etdirilməsi xüsusi önəm kəsb edir. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin yaradılması məhz bu məqsədə xidmət edir. Dövlət başçısının 2008-ci ilin iyun səfəri zamanı Culfa Rayon Mərkəzi Xəstəxanası, Naxçıvan Əyləncə Mərkəzi, Naxçıvan Tibb Məktəbinin yenidən qurulmuş binası, Şahbuz rayonunda hərbçilər üçün yaşayış binası ilə yanaşı, Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin yeni binası da istifadəyə verilmişdir. Bu səfər "Duzdağ" Fizioterapiya Mərkəzinin açılış mərasimi ilə də yaddaqalan olmuş, mərasimdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə yanaşı, Türkiyə Cümhuriyyətinin Baş naziri Rəcəb Tayyib Ərdoğan da iştirak etmişdi.

Ölkə başçısının 2009-cu ildəki səfəri zamanı Heydər Əliyev Sarayı, Badamlı Mineral Sular Zavodu, Naxçıvan şəhərindəki Şahmat Mərkəzi, Doğum Mərkəzi, Naxçıvan-Sədərək magistral avtomobil yolunun bir hissəsi, Şərur Olimpiya-İdman Kompleksi, Şahbuz Rayon Mərkəzi Xəstəxanası kimi çoxsaylı obyektlərin açılış mərasimləri olmuşdur.

Kəngərli rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsinin, Şərur rayon Yengicə kənd tam orta məktəbinin yeni binasının, Naxçıvan-Sədərək magistral yolunun, Şərur rayonunun Maxta kənd tam orta məktəbinin, Sədərək Rayon Mərkəzi Xəstəxanasının, 2 nömrəli Sədərək kənd tam orta məktəbin, Sədərək rayonunda yeni salınan Heydərabad qəsəbəsinin, Ordubad rayonundakı Biləv Su Elektrik Stansiyasının, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin, "Gəmiqaya" Daş Məhsulları Kompleksinin, Naxçıvan şəhərini içməli su ilə təmin edəcək su təchizatı sistemlərinin birləşdiyi paylayıcı qurğunun istifadəyə verilməsi mərasimlərində dövlət başçısı 2010-cu ilin oktyabr ayındakı səfəri zamanı iştirak etmişdi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin muxtar respublikamıza 2012-ci ilin may ayındakı səfəri də çoxsaylı obyektlərin açılışı ilə yaddaqalan olmuş, Prezident Vətən sevgisi üzərində ucaldılan Naxçıvanın tərəqqisinin və intibahının səbəbini öz müdrik nitqi ilə belə açıqlamışdı: ***"Bütün bu işlər onu göstərir ki, bu işləri görən insanlar doğma xalqına, doğma diyarına qəlbən bağlıdırlar. Əsas məsələ Vətən sevgisidir. İqtisadi imkanlar böyük də ola bilər, o qədər böyük olmaya da bilər. Amma əgər Vətən sevgisi varsa, məhdud iqtisadi imkanlarla da çox iş görmək olar. Mən çox şadam ki, naxçıvanlıların Vətənə bağlılığı həmişə olduğu kimi, çox yüksək səviyyədədir".***

Bəli, məhz yuxarıda sadalanan xüsusiyyətlər inkişafın Naxçıvan modelinin və ya Naxçıvan möcüzəsinin əsas səbəbi olmuşdur. Bu modelin əsas uğuru blokada şəraitində, ölkənin əsas ərazisi ilə birbaşa əlaqənin olmadığı şəraitdə belə, inkişafı təmin etməsində, eyni zamanda inkişafın sistemli xarakter daşımasında və sürətli təkamül yolu ilə getməsindədir. Blokada şəraitində – iqtisadi və nəqliyyat əlaqələrinin məhdud olduğu şəraitdə yüksək iqtisadi fəallığa nail olunması, istehsal potensialının hərəkətə gətirilməsi, davamlı quruculuq işləri, sosial problemlərin səmərəli həlli və ən əsası əhalinin güzəranının yaxşılaşdırılması inkişafın Naxçıvan modelinin xarakterik xüsusiyyətləridir. Bütün bunlar – iqtisadi sahə ilə yanaşı, ictimai həyatın bütün sahələrində gedən kompleks inkişaf prosesləri tariximizin ən yeni dövrünü məhz Naxçıvan tarixinin üçüncü intibah dövrü adlandırmağımıza imkan verir.

Ən nəhayət, cənab Prezidentin bu il aprelin 7-8-də Naxçıvana səfəri. Bu səfər Naxçıvanda təkcə yeni obyektlərin açılışı ilə deyil, həm də muxtariyyətin 90 illik yubileyi ilə əlamətdar oldu. Bu səfər çərçivəsində cənab Prezidentin açılışını etdiyi bütün obyektlərin – Naxçıvan Beynəlxalq Hava Limanının yeni inzibati binası, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi, Gənclər Mərkəzi, Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun yeni inzibati binası, Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolu, Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi, Kəngərli Rayon Mərkəzi Xəstəxanası, "Arpaçay-1" və "Arpaçay-2" Su Elektrik stansiyaları və digər obyektlərin hər biri Naxçıvanın muxtariyyətinin 90 illik yubileyinə dəyərli töhfələr və Azərbaycan dövlətinin naxçıvanlılara dəyərli hədiyyələri idi.

Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdəki nitqini isə muxtar respublikanın son illərdə qazandığı uğurlara, nailiyyətlərə dövlət başçısının strateji qiyməti hesab etmək olar.

Təntənəli mərasimin videoyazısını izləyərkən bir neçə məqam xüsusilə diqqətimi çəkdi. İlk növbədə, muxtariyyətin əldə edilməsində, qorunub saxlanılmasında olduğu kimi, Naxçıvan Muxtar Respublikasının müasir inkişafının da Naxçıvan insanının fövqəladə əzminin nəticəsi olduğunu ölkə başçısı xüsusi vurğuladı və bu münasibətlə naxçıvanlıları təbrik etdi. Prezident dedi: ***"Naxçıvan sürətlə inkişaf edir. Naxçıvanda bütün məsələlər uğurla icra edilir. Bu səfər mənim Naxçıvana son 10 il ərzində 11-ci səfərimdir. Demək olar ki, hər il Naxçıvana gəlirəm, burada gedən inkişafla tanış oluram və çox sevinirəm. Sevinirəm ki, bu gün Naxçıvan çiçəklənən bir diyardır.***

***Dünən son bir il ərzində Naxçıvanda görülən işlərlə bir daha tanış olarkən gördüm ki, nə qədər böyük işlər görülür, Naxçıvan rəhbərliyi muxtar respublikanın inkişafı üçün nə qədər böyük sevgi ilə, diqqətlə səylər göstərir. Bütün bu uğurlar münasibətilə naxçıvanlıları ürəkdən təbrik edirəm".***

Dövlət başçısı Naxçıvan ordusu haqqında danışdı və torpaqlarımızın işğal faktorunun bu sahənin xüsusi diqqətdə saxlanılmasını şərtləndirdiyini qeyd etdi: ***"Naxçıvanın hərbi potensialı elə olmalıdır ki, istənilən təcavüzə tutarlı, layiqli cavab verə bilsin. Bu gün bu artıq reallıqdır. Gələcək illərdə görüləcək əlavə tədbirlər hesabına biz Naxçıvanda daha da böyük hərbi potensial yaradacağıq. Buna imkan vardır. Azərbaycan dövləti zəngin dövlətdir. Bildiyiniz kimi, bizim dövlət büdcəmizin əsas xərcləri hərbi məqsədlər üçün nəzərdə tutulur. Nə qədər ki torpaqlarımız işğal altındadır, bu, belə də olmalıdır".***

Naxçıvanın enerji və ərzaq təhlükəsizliyinin təmin olunmasından da qürurla danışan dövlət başçısı bütün qazanılan uğurların məhz ulu öndər Heydər Əliyevin tapşırıqlarının şərəflə yerinə yetirilməsinin nəticəsi olduğunu dedi: ***"Yeni aparılan islahatlar, düşünülmüş siyasət, xalqla iqtidar arasındakı birlik bizim uğurlarımızı şərtləndirir. Son 10 ilin inkişafı onu göstərir ki, biz, ulu öndərin davamçıları onun bütün tapşırıqlarını şərəflə yerinə yetirmişik".***

***P.S.*** *Bəli, bu gün ulu öndərin layiqli davamçıları onun ideyalarını ləyaqətlə gerçəkləşdiriblər. Ulu öndər Heydər Əliyevin haqlı mövqeyi, haqlı Azərbaycan mübarizəsi ölkəmizi çiçəklənmə yoluna çıxarmışdır. XX əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində ümummilli lider Heydər Əliyevə qarşı aparılan böhtan kampaniyalarını, parlament və hökumətdə bəzi "siyasət"çilərin ŞƏXSİYYƏTƏ qarşı qısqanclığını, onu mərkəzdən – Bakıdan və mərkəzi proseslərdən uzaqlaşdırmaq, başqa sözlə desək, onu ətrafın, xalqın gözündən gizlətmək cəhdlərini xatırlayanda bir daha əmin olursan ki, haqq-ədalət bir gün mütləq qalib gəlir. Günəşin işığının qarşısını heç nə ilə kəsmək olmur. Haqq işi uğrunda, ədalət uğrunda mübarizə aparan fenomenal istedadlı, siyasi mənafelərə deyil, dövlət mənafelərinə xidmət edən ŞƏXSİYYƏTİN qarşısını cılız şəxsi mənafeyini düşünən ünsürlər kəsə bilməz. Və tarixin ən böyük həqiqəti ondan ibarətdir ki, bir gün hər kəs mütləq həqiqəti, onun qələbəsini alqışlayır. Cənab Prezidentin çıxışı zamanı bütün zal boyu səslənən sürəkli alqışlar da məhz bunu ifadə edirdi.*

**Elnur KƏLBİZADƏ**

# Çəkilən zəhmət hədər getmir

## *Muxtar respublikamızın inkişafında zəhməti olanların əməyi yüksək qiymətləndirilir*

*Doğma diyarımız Naxçıvan ölkə başçısının bu qədim torpağa növbəti səfərinin sevinci ilə yaşayır. Səfər zamanı muxtar respublikada görülən işlərə Prezident İlham Əliyevin yüksək qiymət verməsi hamımızı fərəhləndirdi. Sevincimizə daha bir sevinc qatan məqam isə aprel ayının 8-də Heydər Əliyev Sarayında muxtar respublikanın 90 illik yubileyi münasibətilə keçirilən tədbirdə ölkə başçısının Naxçıvanın sosial-iqtisadi inkişafında xidmətlərinə görə bir qrup şəxsi medal və fəxri adlarla təltif etməsi oldu. Yüksək dövlət mükafatlarına layiq görülənlərin bir neçəsi ilə görüşüb həmsöhbət olduq.*

***Asim YADİGAR – "Tərəqqi" medalının təltifçisi, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri:***



– Ümummilli lider Heydər Əliyev Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişafında misilsiz xidmətlər göstərən dahi şəxsiyyət kimi həmişə yaradıcı insanlara yüksək qiymət verir, onların əməyini həmişə yüksək dəyərləndirirdi. Ulu öndər dönə-dönə qeyd edirdi ki, hər bir milləti dünyada tanıdan onun ədəbiyyatıdır, mədəniyyətidir, görkəmli ədəbiyyat və mədəniyyət xadimləridir.

Ulu öndərin sənət adamlarına qayğı missiyasını Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu gün uğurla həyata keçirməkdədir. Mənim "Tərəqqi" medalına layiq görülməyim, ilk növbədə, muxtar respublikamızda söz adamlarına, yaradıcı insanlara diqqət və qayğının bariz ifadəsidir. Bu gün muxtar respublikamızda yaşayıb-yaradan şair və yazıçılarımızın əksəriyyəti müxtəlif fəxri adlar daşıyır, orden və medallarla təltif olunublar. Mən də diqqət və qayğı ilə əhatə olunmuşam. Bu il yanvar ayının 31-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında 60 illik yubileyimin keçirilməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı ilə təltif olunmağım məni daha yaxşı işləməyə, yazıb-yaratmağa səsləyir.

Biz Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə çox böyük uğurların əldə olunmasının şahidləriyik. Biz qədim diyarımızın 90-cı illərin əvvəllərindəki ağır, çətin günlərinin şahidi olan insanlarıq. Bu gün isə bizim gözümüz qarşısında muxtariyyət qazanmasının 90 illiyini qeyd etdiyimiz muxtar respublikamızın hər bir kəndi, rayon mərkəzi öz simasını tamamilə dəyişir. Ən ucqar dağ kəndlərimizdə belə, kənd mərkəzləri, yeni məktəb binaları tikilir, abad, geniş yollar çəkilir, qədim diyarımıza təzə naxışlar vurulur. Naxçıvanımız səliqə-sahmanı, gözəlliyi ilə bu yurda qonaq gələn hər bir insanı heyran edir. Biz yaradıcı ziyalılar bunu çox gözəl görür, əsərlərimizdə doğma torpağımızı, onun gündən-günə dəyişilən simasını böyük ilhamla tərənnüm etməyə çalışırıq. Mən kiçik yaradıcı əməyimə verilən yüksək qiymətə, dəyərə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova dərin minnətdarlığımı bildirirəm. Çalışacağam ki, bundan sonra da öz yaradıcılığımla doğma Azərbaycanımıza, onun ayrılmaz bir parçası olan Naxçıvan Muxtar Respublikasına xidmət edim.

***Vəli BAXŞƏLİYEV – "Tərəqqi" medalının təltifçisi, AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru:***



– Hələ uşaqlıq illərindən elm aləminin sehrli dünyası məni özünə çəkirdi. Tariximizi obyektiv faktlar əsasında araşdırmaq istəyi məni Azərbaycan Milli Elmlər Akademiyası A.Bakıxanov adına Tarix İnstitutunun aspiranturasına qədər apardı. İlk elmi fəaliyyətim də elə bu elm məbədindən başladı. 36 illik əmək fəaliyyətimin bütün illəri Azərbaycan Milli Elmlər Akademiyası ilə, Naxçıvanın qədim tarixinin tədqiqi ilə bağlı olub. Sovet dövründə milli tariximizin yazılması o qədər də asan deyildi. Bir tərəfdən abidələrimizin tədqiqi, digər tərəfdən isə bədxah qonşularımız olan ermənilərin himayə edən hind-avropaçılıq nəzəriyyəsinə qarşı durmaq zərurəti ortaya çıxmışdı. Azərbaycan xalqı öz müstəqilliyinə qovuşduqdan sonra Naxçıvana ermənilərin ərazi iddiaları, tariximizə və abidələrimizə qarşı hücumları daha da artdı. Azərbaycanın ayrılmaz parçası olan Naxçıvan və onun yenilməz əhalisi tarixin dönüş nöqtələrində öz müstəqilliyini qorumaq üçün yurdumuzun şəhid qanı hopan torpaqlarına göz dikənlərə qarşı əzmlə mübarizə aparmış, tarixin sınaqlarından zəfərlə çıxmışdır. Yurdumuzun torpağına və daşına hopan bu mübarizlik bizə qədim zamanlardan miras qalmışdır. Hələ e.ə. VIII-VII əsrlərdə soydaşlarımız qədim dünyanı lərzəyə salan Urartu hücumlarına sinə gərmiş, onları torpaqlarımızdan uzaqlaşdırmışlar. Tarixi qəhrəmanlıq səhifələri ilə dolu olan bir xalqın tarixini araşdırmaq bizim üçün şərəf və qürur işinə çevrilmişdir.

Muxtar respublikamızın mübarizələrlə zəngin olan muxtariyyət tarixindən 90 il keçir. Naxçıvan Muxtar Respublikasının bu gözəl və iftixarlı günlərində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvanın bir sıra ziyalıları kimi, mənim də əməyimi qiymətləndirməsindən, "Tərəqqi" medalı ilə təltif olunmağımdan qürur duyur, dövlət rəhbərimizə minnətdarlığımı bildirirəm. Heydər Əliyev irsinin layiqli davamçısı cənab İlham Əliyevin rəhbərliyi ilə xalqımızın sosial-iqtisadi inkişafı və çiçəklənməsi naminə öz bilik və bacarığımı heç vaxt əsirgəməyəcəyəm.

***Tamilla BAYRAMOVA – Azərbaycan Respublikasının əməkdar həkimi, Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasının həkimi:***



– Bu gün tibbi xidmətin keyfiyyətcə müasir standartlar səviyyəsinə yüksəldilməsi, vətəndaşların sağlamlığının etibarlı qorunması məsələləri dövlətin üzərinə götürdüyü sosial öhdəliklər sırasında mühüm yer tutur. Uzun illərdir ki, səhiyyə sahəsində çalışdığım üçün müqayisə aparmaq imkanım var. Bu səbəbdən də tam səmimiyyətlə deyə bilərəm ki, ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan genişmiqyaslı islahatlar göstərir ki, milli səhiyyə sistemimiz sürətlə müasirləşir. Ona görə də qazanılan uğurlar getdikcə artır. Bu uğurlar isə əhalinin sağlamlığına göstərilən dövlət qayğısının bariz nümunəsi kimi insanlar tərəfindən yüksək dəyərləndirilir. Prezident cənab İlham Əliyevin ***"Dövlətin kifayət qədər imkanı var ki, bu sahəyə vəsait ayırsın və bütün xəstəxanaları lazım olan avadanlıqlarla, tibbi ləvazimatla, hər şeylə təmin edə bilək. Bu sahə həmişə, bundan sonrakı illərdə də prioritet sahə olacaqdır"*** sözləri isə bir daha sübut edir ki, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanın inkişafına yönəlmiş siyasəti bu gün ölkə başçısı tərəfindən uğurla davam etdirilir.

Ulu öndərin səhiyyə sisteminin inkişafı istiqamətində müəyyənləşdirdiyi vəzifələr bu gün muxtar respublikamızda da uğurla yerinə yetirilir. Son illərdə Naxçıvan səhiyyəsində misilsiz işlər görülmüş, mühüm tədbirlər həyata keçirilmişdir. Ucqar dağ kəndlərində belə, bu gün müasir həkim ambulatoriyaları, feldşer-mama məntəqələri fəaliyyət göstərir. Muxtar respublikanın rayonlarında müasir tələblərə cavab verən rayon xəstəxana binalarının tikintisi başa çatdırılmışdır. Dövlət başçısının iştirakı ilə Kəngərli Rayon Mərkəzi Xəstəxanasının istifadəyə verilməsindən sonra muxtar respublikamızın rayon mərkəzlərində müasir tələblərə cavab verməyən xəstəxana binası qalmayıb. Təbii ki, bütün bunlar muxtar respublikada əhaliyə göstərilən səhiyyə xidmətinin keyfiyyətini də yaxşılaşdırmağa imkan verir. Bunun nəticəsidir ki, muxtar respublika əhalisinin Naxçıvandan kənarda müayinə və müalicə olunmalarına ehtiyac qalmamışdır. Bu, bir həkim kimi məni də ürəkdən sevindirir. Həm də ona görə sevinirəm ki, dövlətimiz tərəfindən fəxri ada layiq görülmüşəm. Muxtar respublikamızın yaradılmasının 90 illiyinin qeyd olunduğu bu ərəfədə belə yüksək ada layiq görülməyim sevincimin üstünə daha bir sevinc əlavə edib. Bunu həm də Naxçıvan səhiyyəsinə verilən yüksək qiymət hesab edirəm. Sevinirəm ki, Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyini əldə olunan yüksək nailiyyətlər, həyata keçirilən çoxşaxəli quruculuq işləri ilə qarşılayırıq. Əməyimin dövlətimiz tərəfindən yüksək qiymətləndirilməsinə, mənə göstərilən bu diqqət və qayğıya görə ölkə başçısına dərin minnətdarlığımı bildirirəm. Əmin edirəm ki, göstərilən bu etimadı doğruldacaq, verilən yüksək qiymətə bundan sonrakı fəaliyyətimlə cavab verəcəyəm.

***Nəzakət ƏSƏDOVA – Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin direktoru:***



– Mənə "Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi" fəxri adının verildiyi günü həyatımın, əmək fəaliyyətimin ən uğurlu zirvəsi, taleyimin ən xoşbəxt səhifəsi hesab edirəm.

Hələ ötən əsrin 70-ci illərindən etibarən ümummilli liderimiz Heydər Əliyevin yürütdüyü mədəni inkişaf siyasətinin nəticəsi idi ki, Azərbaycanda muzey şəbəkəsinin əsası qoyuldu. Azərbaycan tarixinin, milli-mədəni irsinin öyrənilməsi, tarixi eksponatların muzey vasitəsilə təbliği və nümayişi işinin təşkili istiqamətində ulu öndərin gördüyü işlərin, verdiyi tövsiyə və tapşırıqların davamı olaraq, bu gün respublika Prezidentinin qərar və sərəncamları əsasında Azərbaycanda muzeylərin inkişafı istiqamətində irimiqyaslı tədbirlər həyata keçirilir. Muxtar respublikamızda da muzeylərin bərpası, yenidən qurulması, yeni muzeylərin təşkili istiqamətində mühüm tədbirlər görülür.

1985-ci ildən sevə-sevə muxtar respublikada muzey işinin inkişafına sərf etdiyim əməyimin yüksək qiymətləndirilməsi mənim həyatıma böyük sevinc, fərəh hissi bəxş etdi. Mənə "Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi" fəxri adının verilməsinə görə ölkə Prezidentinə minnətdarlığımı bildirir, muzey işinin inkişafına var qüvvəmlə xidmət edəcəyimə söz verirəm.

***Şölə ƏLİYEVA – Azərbaycan Respublikasının əməkdar jurnalisti, Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin əməkdaşı:***



– Şahidi və iştirakçısı olduğumuz bu tarixi günlər qəlbimizi iftixar hissi ilə döyündürür. Ölkə rəhbərinin müəyyənləşdirdiyi xətlə öz parlaq sabahlarına doğru inamla irəliləyən Vətənimiz intibah dövrünü yaşayır. Bütün sahələrdə qazanılan parlaq uğurlar Vətən tarixinin yeni bir mərhələsini müəyyənləşdirir. Bu mərhələ yer üzünün bütün azərbaycanlılarına səadət, bəxtəvərlik bəxş edir.

İnsanlara məhəbbət, həssas münasibət, hər kəsin qayğısına qalmaq yürüdülən siyasətin mühüm tərkib hissəsidir. Biz hər addımda bu tükənməz qayğını hiss edir, sonsuz minnətdarlıq duyğularımızı fəaliyyətimizlə ifadə etməyə çalışırıq.

Mənə "Azərbaycan Respublikasının əməkdar jurnalisti" kimi yüksək fəxri adın verilməsini bütün qələm dostlarımın əməyinin dəyərləndirilməsi kimi qəbul edir, sevincimi bölüşürəm. Bu ad sadə jurnalist əməyinə verilən ən yüksək mükafatdır.

Biz jurnalistlər həm də ona görə xoşbəxtik ki, bu tarixi günlərin xronikasını yazmaq, telesalnaməsini yaratmaq kimi çox müqəddəs bir vəzifənin icraçılarıyıq. Bu sahədə qarşımıza qoyulan vəzifələri layiqincə yerinə yetirmək bizim vətəndaşlıq borcumuzdur, həyatımızın mənasıdır.

Muxtar respublikamız özünün 90 illik yubileyinin bayram sevincini yaşayır. Bayram sevinci ilə qələmə alınmış hər bir yazı jurnalistlərimizin Vətən sevgisinin parlaq təzahürü, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin daimi qayğısına minnətdarlıq duyğularının ifadəsidir.

Əməyimizə verilən yüksək qiymət bizi ikiqat məsuliyyətlə fəaliyyət göstərməyə ruhlandırır, fəal mövqe nümayiş etdirməyə, publisistik sözün qüdrəti ilə qarşımıza qoyulan vəzifələri layiqincə yerinə yetirməyə səfərbər edir.

**Hazırladı: ✍ Sara ƏZİMOVA**

---

***Azərbaycan Respublikası Səhiyyə Nazirliyi M.A.Topçubaşov adına Elmi-Cərrahiyyə Mərkəzinin uşaq kardioloqu Elnur İmanov Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində yerli həkimlərlə birgə anadangəlmə ürək qüsurlu 11 uşağın müayinə və müalicəsini həyata keçirmişdir.***

# Anadangəlmə ürək qüsurlu uşağın həyatı xilas edildi

Aparılan müayinələr nəticəsində anadangəlmə ürək qüsurlu körpə Rəna Səfərovanın vəziyyəti risk qrupuna daxil edilmişdir. Səkkiz aylıq və 5 kiloqram çəkisi olan körpənin ürəyində botal axacağın açıq qalması onun həyatını təhlükəli vəziyyətə çatdırmışdı.Valideynləri körpənin müalicəsi üçün əvvəllər qonşu ölkələrə pənah aparsalar da, mütəxəssislər bu riskli əməliyyatdan imtina etmişdilər. Nəhayət, Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinə gətirilən körpə invaziv kardioloq tərəfindən exokardioqrafik və angioqrafik müayinədən keçirilmiş, müayinələr botal axacağın diametrinin böyüyərək həyat üçün təhlükəli həddə çatdığını göstərmişdir. Yaranan fəsadın təxirəsalınmadan aradan qaldırılmasına qərar verilmişdir. Xarici mütəxəssislərin imtina etdikləri işi Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin kardioloq-angioqrafı Nail Möhbalıyev öz üzərinə götürmüşdür. Əməliyyat transkateter yolla, xüsusi cihaz vasitəsilə həyata keçirilərək botal axacağın tam bağlanmasına nail olunmuşdur. Qeyd edək ki, bu, naxçıvanlı mütəxəssisin risk qrupuna daxil olan xəstələr üzərində apardığı altıncı əməliyyatdır. Döş qəfəsi yarılmadan aparılan əməliyyatdan sonra heç bir iz qalmamış, körpə birgünlük həkim müşahidəsindən sonra yenidən valideynlərinə qovuşmuşdur.

Körpənin öz doğma yurdunda şəfa taparaq tam sağalması Naxçıvan səhiyyəsinin, burada çalışan ağxalatlı peşə sahiblərinin növbəti uğurlarından biridir. Rənanın valideynləri ölkənin digər yerlərində olduğu kimi, Naxçıvan səhiyyəsində də yaradılan bu şəraitə görə ölkə başçısına öz minnətdarlıqlarını bildirmişlər.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

---

# Kulinariya Mərkəzində tədbir keçirilib

***"Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzində mərkəzin yaradılmasının beşinci ildönümü münasibətilə tədbir keçirilib.***

Tədbirdə mərkəzin direktor əvəzi Zaur Əliyev çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 9 aprel 2009-cu ildə xalq yaradıcılığının ən qədim sahələrindən biri olan kulinariya mədəniyyətinin sistemli şəkildə öyrənilməsi və inkişafı, təbliği, tanıdılması məqsədilə "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzinin yaradılması haqqında Sərəncam imzalayıb. Mərkəzin yaradılmasının beş ili tamam olur. Ötən müddətdə mərkəz Naxçıvan mətbəxinin təmsil və təbliğ olunması sahəsində bir sıra işlər görmüşdür.

Mərkəz yarandığı gündən əməkdaşlar bir sıra bölgələrə səfər edib, unudulmaqda olan mətbəx nümunələrinin toplanması və bərpası, təbliği, mətbəximizlə bağlı bir sıra folklor nümunələrinin toplanması işi ilə məşğul olub. Ötən müddət ərzində öz işini günün tələbləri səviyyəsində qurmağa çalışan mərkəz bir sıra festivallarda iştirak edib, sərgilərdə Naxçıvan kulinariya mədəniyyətini uğurla tanıdıb.

Qeyd edilib ki, bu beş il ərzində mərkəzin ən böyük uğurlarından biri "Naxçıvan mətbəxi" kitabının işıq üzü görməsi olub. Bu kitab muxtar respublika rəhbərinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamına əsasən hazırlanıb. Kitabın unikallığı ondan ibarətdir ki, indiyədək Naxçıvan mətbəxi haqqında bu cür sanballı və mükəmməl kitab nəşr olunmayıb.

Vurğulanıb ki, "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzi bundan sonra da milli mətbəximizin təbliği, tədqiqi, unudulmaqda olan milli mətbəx nümunələrinin toplanması işini layiqincə davam etdirəcək.

Tədbirdə mərkəzin mühəndis-texnoloqu Minayə Bayramovanın, mütəxəssis Aynur Hüseynovanın çıxışları olub.

**✍ Sona MİRZƏYEVA**

***"2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın qəbul edilməsindən iki ildən artıq vaxt ötür. Muxtar respublikada əhalinin meyvə, tərəvəz və üzüm məhsulları ilə dolğun təmin olunması, həmin məhsulların xaricə ixrac edilməsi, nəticədə, kənd əhalisinin məşğulluğunun artırılması və maddi-rifah halının yüksəldilməsi dövlət proqramının əsas məqsədidir. Naxçıvan diyarı özünün hazırkı sürətli inkişaf dövründə ötən hər ili sosial-iqtisadi həyatda əldə olunan mühüm nailiyyətlərlə başa vurur. 2013-cü il də kənd təsərrüfatının inkişafında uğurlu illərdən biri olmuşdur. Bütövlükdə, 2013-cü ildə muxtar respublikada 337 milyon manatdan çox kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur. Ötən il 43 min tondan çox meyvə, 15 min tondan çox üzüm istehsal edilmişdir.***

# Meyvə bağlarının yaz qayğıları

2014-cü ildə də meyvə bağlarında yüksək məhsuldarlığa nail olunması üçün vaxtında və lazımi aqrotexniki tədbirlərin həyata keçirilməsi mühüm şərtlərdən biridir. Naxçıvan Muxtar Respublikasının düzən, dağətəyi və dağlıq ərazilərində meyvə ağaclarının yaxşı böyüməsi, inkişafı, bol və keyfiyyətli məhsul verməsi üçün mövcud torpaq-iqlim şəraiti olduqca əlverişlidir. Yaxşı haldır ki, son vaxtlar muxtar respublikanın bütün bölgələrində yeni meyvə bağlarının salınmasına daha çox diqqət yetirilir. Bağlardan yüksək məhsulun götürülməsi yaz fəslində aqrotexniki tədbirlərin düzgün yerinə yetirilməsindən asılıdır. Ancaq onu da yadda saxlamaq lazımdır ki, yeni bağların salınmasında ərazinin torpaq-iqlim şəraiti mütləq nəzərə alınmalıdır. Dağlıq ərazilərdə daha çox yay və payızın əvvəlində yetişən müxtəlif alma, armud, cəviz sortları əkilməlidir. Dağətəyi və düzən ərazilərdə isə yayda, payızda yetişən tumlu və qoz meyvəli ağacların əkilməsi daha çox səmərəli olar. Düzən ərazilərdə daha çox çəyirdəkli meyvələrdən göycə, almaxara, albalı, gilas və sair əkilməlidir. Qeyd edək ki, şəraitə uyğun meyvə ağacları əkiləndə onlar xəstəlik və zərərvericilərə az yoluxurlar. Yeni meyvə bağlarının salınmasında çalışmaq lazımdır ki, yerli meyvə sortlarının tinglərindən daha çox istifadə olunsun. Muxtar respublika ərazisində tinglərin erkən yazda əkilməsi məqsədəuyğundur. Müxtəlif meyvələrin toxumlarından alınan tinglər torpaqdan elə çıxarılmalıdır ki, kökləri mümkün qədər az zədələnsin. Tinglər əkilərkən əsas kökün uc hissəsi bağ qayçısı ilə kəsilib atılmalıdır ki, əlavə və yan köklərin inkişafı güclənsin. Cəviz ağacı tinglərində isə əsas kökün kəsilib atılması əlavə və yan köklərin inkişafına səbəb olur. Erkən yazda əksər meyvə sortlarını qələm və yarma calaq vurmaqla artırmaq olar. Qələmlə çoxaldılmada birillik zoğlar 10-20 santimetr uzunluğunda kəsilərək əvvəlcədən hazırlanmış və üzəri örtülən yeşiklərə, yaxud istixanalara əkilərək köklədirilir. Yarma calaq üsulu ilə çoxaldılmada tumlu meyvələrin calaqüstü çilikləri tumlu meyvələrdən alınmış calaqaltlarına, çəyirdəkli meyvələr isə çəyirdəkli meyvələrdən alınmış tinglərə peyvənd edilə bilər. Calaq işi şirə axını başlananadək aparılmalıdır.

Son vaxtlar payız və yaz fəsillərində kənar bölgələrdən muxtar respublikamıza çoxlu meyvə tingləri gətirilir. Bu tinglər isə karantin qaydalarına uyğun zərərsizləşdirilmədiyindən onların kökləri, gövdələri üzərində müxtəlif xəstəlik və zərərvericilərin yumurtaları, sürfələri onların əkildiyi ərazidə yayılır. Belə hal isə mənşəyi bilinməyən xəstəliklərin və ziyanvericilərin yaranmasına və yayılmasına səbəb olur. Fikrimizcə, kənar bölgələrdən gətirilən perspektivli meyvə sortlarından ancaq calaqüstü kimi istifadə edilməsi daha məqsədəuyğundur.

Meyvə ağaclarında quru budama tumurcuqlar cücərənədək edilməlidir. Tumlu və çəyirdəkli meyvələrdə quru badama iti bağ mişarı və ya qayçısı ilə aparılmalıdır. Ağaclarda əyilmiş, sıxlıq yaradan, buğumaraları geniş, meyvəsiz tumurcuqları olan zoğlar budanmalıdır. Quru budama aparılarkən meyvə ağacları üzərində bar budaqlarını tanımaq lazımdır. Budaqlar üzərində tumurcuqlar barlı və barsız olmaqla, iki formada olurlar. Barlı tumurcuqlar barsız tumurcuqlardan fərqlənirlər. Barlı tumurcuqlar şişkin iri, girdə formada, ucu küt olur. Barsız tumurcuqlar isə budağa kip yapışır, uzunsov formada olurlar. Tumlu meyvələrdə ağaclar üzərində barlı tumurcuqlar həlqəvi, nizə, şiş və mürəkkəb budaqcıqlar üzərində formalaşırlar. Çəyirdəkli meyvələrdə isə bar tumurcuqları qısa və uzun budaqlar üzərində əmələ gəlir.

Meyvə ağaclarına çətir formalarının verilməsi çox mühüm aqrotexniki qaydalardan biridir. Meyvə ağaclarına, əsasən, şah budaqlı və şah budaqsız çətir formaları verilir. Budama aparılarkən diqqət yetirmək lazımdır ki, meyvə verən tumurcuqlar olan budaqlar saxlanılsın. Budama elə aparılmalıdır ki, ağacda şah budaq və onun ətrafındakı budaqlara asanlıqla Günəş şuaları düşə bilsin, havalanma yaxşı getsin. Şah budağı olmayan meyvə ağaclarında əsas budaqlar və onlar üzərindəki birinci dərəcəli budaqlara elə budama forması verilməlidir ki, yeni zoğlar inkişaf edərkən və yarpaqlar açılarkən havalanma normal olsun, Günəş şüası budaqlara düşə bilsin. Yoğunlaşmış budaqların kəsildiyi nahiyələrə məlhəm və ya boya sürtülməlidir. Ağaclarda çətir elə saxlanmalıdır ki, gövdənin və yeraltı kök sisteminin inkişafı ilə yerüstü çətirin inkişafı mütənasib olsun. Bağçılıqda quru və yaşıl budama işləri hər bir meyvə sortu üçün özünəməxsus qaydada aparılmalıdır. Alma sortlarında quru budama aparарkən ağacın meyvə və boy budaqlarının yerləşməsinə və inkişafına diqqət yetirmək lazımdır. Çünki ağacda həlqəvi meyvə budaqları üstünlük təşkil edirsə, məhsuldarlıq fasiləli, nizə və şiv meyvə budaqları çox olarsa, məhsulvermə müntəzəm olacaqdır. Armud ağacının bar tumurcuqları budaqlarda mahmızların, şivlərin və mürəkkəb halqacıqların üzərində əmələ gəlir. Ən çox bar gözləri çoxillik budaqların üzərində olan mahmızlarda formalaşır. Ona görə də quru budama elə aparılmalıdır ki, yatmış gözlər cücərərək meyvə budaqları əmələ gətirsinlər. Alça və almaxara ağaclarında xırda budaqcıqlar tamamilə təmizlənməlidir, çətir elə saxlanılmalıdır ki, sıxlıq olmasın.

***Meyvə bağlarında bol məhsulun əsası erkən yazdan başlayaraq mövsümi aqrotexniki işlərin düzgün və vaxtında aparılması ilə qoyulur. Şübhəsiz ki, bu il də muxtar respublika əhalisini meyvə məhsulları ilə təmin etmək üçün meyvə bağlarından yüksək məhsul əldə olunacaqdır.***

**Varis QULİYEV**
***AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun əməkdaşı, aqrar elmləri doktoru***

# Təbiətə məktəbli töhfəsi

***Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası muxtar respublikanın 90 illik yubiley tədbirləri çərçivəsində "Təbiətə məktəbli töhfəsi" adlı aksiyaya start verib.***

Ətraf mühitə məktəbli oxucular tərəfindən qayğı göstərilməsi, onları təbiətə məhəbbət ruhunda tərbiyə etmək məqsədilə bu il fevral ayının 15-də start verilən aksiya çərçivəsində uşaqlar ən azı 20 kvadratmetr ərazini zəhərləmək gücündə olan elektrik batareyalarını toplamaqla məşğul olublar. Bu günə qədər uşaqlar 1000-ə yaxın təbiətə zərərli olan batareya toplayıblar. Aksiyada Naxçıvan şəhər və Şərur rayon məktəbliləri fəallıq göstərirlər. Aksiya zamanı uşaqlara məlumat verilərək bildirilib ki, batareyalar istifadə zamanı heç bir problem yaratmır, lakin bu cərəyan mənbəyi tükənəndə lazımsız olur və tullantı kimi atılır. Məhz bu zaman o, təhlükəli olur. Müxtəlif batareyalarda müxtəlif ağır metallar olur ki, onlar da hətta kiçik miqdarda belə, insan sağlamlığına ziyan vurur. Bunlar sink, manqan, kadmium, nikel, civə və başqalarıdır. Batareyalar atılandan sonra korroziyaya uğrayır, tərkibindəki ağır metallar torpağa və qrunt sularına keçir. Qrunt sularında olan bu metallar çay, göl və ya artezian sularına düşə bilər ki, həmin sulardan da içməli su kimi istifadə olunur.

Qeyd edək ki, bu aksiya aprel ayının sonunadək davam edəcək və məktəblilər tərəfindən toplanan batareyalar Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşlarının iştirakı ilə məhv ediləcək. Aksiyada fəal iştirak edən şəhər və rayon kitabxanalarının balaca oxucuları hədiyyələr, diplomlar və fəxri fərmanlarla mükafatlandırılacaqlar.

**Xəbərlər şöbəsi**

# Muxtar respublika birinciliyi keçirilib





Ötən gün Naxçıvan Atıcılıq Mərkəzində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Əlahiddə Ümumqoşun Ordusunun təşkilatçılığı ilə gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində müstəsna əhəmiyyəti olan "Şahin" hərbi idman oyununun Naxçıvan Muxtar Respublika birinciliyi keçirilib.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib. Sonra Gənclər və İdman Nazirliyinin əməkdaşı Canməmməd Canməmmədov yarışı açıq elan edib və birincilikdə iştirak edən gənclərə uğurlar arzulayıb.

Muxtar respublika birinciliyində 9 komanda mübarizə aparırdı. "Naxçıvan-1", "Naxçıvan-2" komandaları ilə yanaşı, Şərur, Babək, Sədərək, Ordubad, Culfa, Şahbuz və Kəngərli komandaları da bu yarışda öz qüvvələrini sınayıblar. Digər mərhələlərdən fərqli olaraq, bu dəfə məktəblilər daha çətin sınaqlardan keçməli olublar. Belə ki, komandalar 8 mərhələdə öz güclərini nümayiş etdiriblər. Əvvəlcə onlar sıra hazırlığında özlərini göstərdilərsə, digər mərhələlərdə darağa patron doldurma və boşaltma, avtomatı sökmək və yığmaq, tüfəngdən hədəfə atəş açmaq, fiziki hazırlıq və manevrlərin dəf olunması mərhələlərinin öhdəsindən gəlməyə çalışıblar. Son iki mərhələdə isə məktəbli gənclər münsiflər qarşısında öz bacarıqlarını müdafiə hazırlığı və sanitarların yarışında nümayiş etdiriblər.

Qeyd edək ki, zona birinciliyinin qalibləri olan Ordubad rayonunun və Naxçıvan şəhərinin "Naxçıvan-1" komandaları may ayında Bakıda keçiriləcək ümumrespublika birinciliyinə vəsiqə qazanıblar.

## "Araz-Naxçıvan" səfər oyununda "Lokomotiv"lə qarşılaşacaq

***Futbol üzrə Azərbaycan I divizionunun 25-ci turu çərçivəsində "Araz-Naxçıvan" futbol komandası səfərdə Biləcərinin "Lokomotiv" komandasının qonağı olacaq.***

Ötən turdakı heç-heçədən sonra bu oyuna ciddi şəkildə hazırlaşan Əsgər Abdullayevin yetirmələri gündə iki dəfə olmaqla məşqlərini davam etdirirlər. Komandamız Naxçıvanda son məşqinə bu gün çıxacaq. Muxtar respublika stadionunda keçiriləcək məşqdən sonra futbolçular səfər hazırlıqlarına başlayacaqlar. Sabah isə komandamız Bakıya yola düşəcək və günün ikinci yarısında "Bakı" futbol klubunun (FK) təlim-məşq bazasının stadionunda məşq prosesini davam etdirəcək.

Komandadakı ab-havaya gəlincə, çempionluq yarışında liderliyi qorumaq üçün bütün qüvvələrini səfərbər edən qırmızı-ağlarda əsas məqsəd səfər matçından üç xalla qayıtmaqdır. "Araz-Naxçıvan"ın heyətində yeganə itki isə Bəxtiyar Soltanovdur. Belə ki, "Neftçala" ilə görüşdə qırmızı vərəqə alan futbolçumuza İntizam Komitəsi 4 oyunluq cəza verib.

Qeyd edək ki, "Lokomotiv"-"Araz-Naxçıvan" matçı aprelin 13-ü saat 15[00]-də "Bakı" FK-nın təlim-məşq bazasının stadionunda oynanılacaq.

## Sədərək komandası şahbuzlu həmkarlarını üstələdi

***Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyası daha bir yoldaşlıq oyununun keçirilməsinə təşkilatçılıq edib.***

Dünən Sədərək və Şahbuz basketbolçuları qarşılaşıblar. "Zərərli vərdişlərə "yox" deyək, həmişə sağlam olaq" devizi altında keçirilən matçdan öncə çıxış edən federasiyanın sədr müavini Ənvər Məmmədov basketbolun muxtar respublika idmanında mühüm yerə sahib olduğunu və bu idman növünün gündən-günə genişləndiyini bildirib.

Sonra meydana çıxan top sehrbazları öz bacarıqlarını nümayiş etdiriblər. Bu görüşdə daha fəal olan sədərəklilər rəqibini 43:37 hesabı ilə məğlubiyyətə uğradıblar.

Görüşdən sonra federasiya tərəfindən fərqlənən idmançılara hədiyyələr verilib.

**✍ Ceyhun MƏMMƏDOV**

***Bildiriş***

"Arzu-1964" Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN-0200706301) fəaliyyəti dayandırıldığından ləğv olunur.

## *Allah rəhmət eləsin*

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Rəyasət Heyətinin üzvləri və Mərkəzi Aparatın əməkdaşları Zülfiyyə Salayevaya, anası
**ZƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun direktoru Tariyel Talıbov və institutun əməkdaşları iş yoldaşları Zülfiyyə Salayevaya, anası
**ZƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının İdarə Heyəti, Şurası, Qadınlar Şurası və nəzarət-təftiş qrupu Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədr müavini Ramil Orucəliyevə, əzizi
**CEYHUN ORUCƏLİYEVİN**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi universitetin dosenti Xanəli Kərimliyə, əzizi
**CEYHUN ORUCƏLİYEVİN**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Müəllimlər İnstitutunun rektorluğu və professor-müəllim heyəti iş yoldaşları
**SƏKİNƏ AXUNDOVANIN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin kollektivi iş yoldaşları Zəkiyyə Salmanovaya, əzizi
**ZƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Xarici tələbələrlə iş üzrə dekanlığın kollektivi dekan Xanəli Kərimliyə, əzizi
**CEYHUN ORUCƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin kollektivi iş yoldaşları Rüstəm Həsənova, əzizi
**CEYHUN ORUCƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimov və xəstəxananın kollektivi iş yoldaşları
**SƏKİNƏ AXUNDOVANIN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Məhkəmə Tibbi Ekspertiza Pataloji Anatomiya Birliyinin baş direktoru Məmmədtağı İbrahimov və birliyin kollektivi iş yoldaşları
**ƏDALƏT HƏSƏNOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

"Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin Çeşidləmə şöbəsinin işçiləri iş yoldaşları Namiq Həsənova, atası
**ƏDALƏT HƏSƏNOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasının direktoru Kamal Axundov və kitabxananın kollektivi iş yoldaşları Cəmilə Məmmədquliyevaya, anası
**ZENFİRA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 335